BAKI
SLAVYAN
UNİVERSİTETİ

# Xarici tələbələr üçün HAZIRLIQ proqramı

**BSU xarici tələbələr üçün 3 dil üzrə hazırlıq proqramı təklif edir: Azərbaycan, Rus, İngilis**

Universitetimizdə xarici tələbələr üçün yüksək keyfiyyətli **Hazırlıq Proqramı** təklif olunur. Bu proqram təhsil həyatına daha yaxşı hazırlaşmaq və seçilən ixtisas üzrə uğurlu nailiyyətlər əldə etmək üçün nəzərdə tutulmuşdur. Tədris üç dil üzrə həyata keçirilir: **Azərbaycan dili, Rus dili və İngilis dili**.

**Qəbul prosesi**

Xarici tələbələrin qəbulu **portal.edu.az** platforması vasitəsilə həyata keçirilir.

Lazımi sənədlərlə ***buradan*** tanış ola bilərsiniz.

**Qəbul müddəti:**

Qəbul prosesi ildə bir dəfə keçirilir:

İyul– Sentyabr

**Sənədlərin təqdimatı:**

Ölkəyə gəldikdən sonra tələbələr aşağıdakı sənədləri **Beynəlxalq təhsil proqramları şöbəsinə** təqdim etməlidirlər:

**Tələbə vizası** (60-90 gün).

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətindən verilən müvəqqəti/daimi yaşama icazəsi.

Əvvəlki təhsil haqqında leqallaşdırılmış (və ya apostil olunmuş) sənəd

Xarici pasport

Sağlamlıq (QİÇS, Hepatit B və C) haqqında arayış

**Proqramın məqsədi:**

- Xarici tələbələrin dil bacarıqlarını inkişaf etdirmək, akademik mühitə uyğunlaşmasını asanlaşdırmaq.
- Seçilən dil vasitəsilə tələbələrə baza bilikləri qazandırmaq.
- Akademik terminologiyanı öyrətməklə ixtisas fənlərinə hazırlıq təmin etmək.

**Tədris Məzmunu:**

Hazırlıq Proqramı dil səviyyəsindən asılı olaraq fərqli mərhələlərdə təşkil olunur:

- Dinləmə, danışıq, oxu və yazı bacarıqlarının inkişafı.
- Təhsil sisteminə uyğun əsas fənlər humanitar sahə üzrə təməl biliklərin öyrədilməsi.
- Yerli mədəniyyətin öyrənilməsi və sosial adaptasiya tədbirləri.

**Proqramın əhəmiyyəti nədən ibarətdir?**

Proqram universitet təhsilinə başlamaq üçün tələbələrə güclü baza verir.
Xarici tələbələr üçün təhsil prosesində əsas maneə olan dil baryeri həll olunur.
Tələbələr yerli mədəniyyəti daha yaxından tanıyaraq sosial adaptasiyalarını asanlaşdırırlar.
Tələbələr həm dil, həm də akademik sahədə özlərini inkişaf etdirir, gələcək təhsillərində inamlı addım atırlar.

Hazırlıq proqramına qoşularaq, tələbələr həm peşəkar, həm də sosial həyatlarında uğur qazanmaq üçün möhkəm təməl qazanırlar. Təhsil mühitimiz tələbələrin ehtiyaclarına uyğun təşkil olunmuşdur və hər kəsə fərdi yanaşma təmin edilir.

Bu proqram vasitəsilə tələbələr, yalnız akademik biliklərlə deyil, eyni zamanda yeni bir mədəniyyətin hissəsi olmaq fürsəti ilə də tanış olacaqlar. Tədris prosesi təcrübəli müəllimlər tərəfindən həyata keçirilir və müasir təlim metodlarından istifadə olunur.